# Bakı sakinlərinin Qələbə sevinci









**Rəşadətli Azərbaycan Ordusunun milli-mədəni irsimizin beşiklərindən olan Şuşa şəhərini azad etməsi və işğalçı ölkə Ermənistanın kapitulyasiyası ölkəmizin hər yerində olduğu kimi, Bakıda da böyük şadyanalıqla qeyd edildi. Uşaqlı-böyüklü, cavanlı-qocalı hər kəs əlində üçrəngli bayraqlarla hərbi vətənpərvərlik mahnılarının sədaları altında öz sevinclərini bölüşürdülər. Küçə boyu Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmiş avtomobillərin siqnal səsləri, şəhərdəki izdiham, musiqi sədaları Bakıda bir ayrı ab-hava yaradırdı. Qələbə sevincini qeyd edən şəhər sakinlərinin bir neçəsinin təəssüratını öyrəndik.**

**Vüsalə Həsənova, Bakı sakini: –** Sevincimin həddi-hüdudu yoxdur. Mən qazi qızı olaraq daim ordumuza güvənmiş, onunla fəxr etmişəm. Bu illər ərzində cənab Prezidentimizə inanıb, onun siyasətini dəstəkləmişik. Məhz onun komandanlığı ilə istər döyüş, istərsə də diplomatiya sahəsində apardığı gərgin mübarizə öz nəticəsini verdi. Azərbaycan haqqı olan qələbəni qazanaraq, torpaqlarını azad etdi, işğalçını diz çökdürdü. Neçə-neçə igid oğlanlarımız bu qələbəni qazanmaq üçün sinələrini sipər etdilər, son damla qanlarına qədər döyüşdülər. Təki Vətən işğaldan azad olsun. Şuşamızın azad edilməsi və bu xoş xəbərin Prezident İlham Əliyev tərəfindən elan edilməsi isə Bayraq Günü ərəfəsində və bayram günü Ermənistanın kapitulyasiyası xalqımıza ən xoş müjdəli xəbərlər oldu. Neçə-neçə ailənin vətən həsrətinə son qoyulacaq. Onlar artıq öz doğma yurdlarına qovuşacaqlar. Fəxr edirəm ki, azərbaycanlıyam. Xalqımla, ölkəmlə, Prezidentimlə qürur duyuram. Xalqıma xoş günlər, qələbə sevinci yaraşır.

**Fuad Əsgərov, ictimai fəal:** – Bu gün Azərbaycan xalqının ən qürurlu günlərindən biridir. Rəşadətli ordumuz uzun illərdən sonra tarixi zəfər çaldı və işğal altında qalmış torpaqlarımızı azad etdi. Tarixi zəfərdən sonra “ mən azərbaycanlıyam” demək, şəxsən məni daha da qürurlandırır. Dağlıq Qarabağın və ətraf rayonlarının işğal altında olması indiyə kimi, beynəlxalq tədbirlərdə daim müzakirə edilir, hətta gərgin mübahisələrə də səbəb olurdu. Allaha şükürlər olsun ki, ordumuz öz qələbəsi ilə bizə bu sevinci yaşatdı. Otuz illik həsrətdən sonra biz artıq ərazi bütövlüyümüzə qovuşuruq. Qalib millətin övladları olaraq sevincliyik. Ali Baş Komandan İlham Əliyev başda olmaqla dünya azərbaycanlılarını təbrik edir, dövlətimizə bundan sonra firavan həyat və nailiyyətlər arzu edirəm.

**Çingiz Əliyev, tələbə:** – Ordumuzun qazandığı zəfər hamı kimi, biz gəncləri də sevindirir. Otuz ildən çox idi ki, torpaqlarımız işğal altında idi. Qarabağımızın azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün milli qeyrət məsələsi idi. Bu günlər ərzində döyüş meydanında rəşadətli ordumuzun qazandığı uğurları həyəcanla izləyirdim. Azad edilmiş rayonlarımızda üçrəngli bayrağımız dalğalandıqca, fərəhlənirəm, həm də kövrəlirəm. Çox sevincliyəm ki, mən və yaşıdlarım bu tarixi günlərə şahid olduq. Mən və dostlarım bu günlər ərzində informasiya sahəsində fəal olduq, Qarabağ həqiqətlərini müxtəlif dillərdə sosial media vasitəsilə dünyaya yaydıq, informasiya meydanında öz töhfəmizi verdik, ordumuzun uğurlarını işıqlandırmaqdan qürur duyduq. Ümid edir və inanıram ki, bundan sonra ölkəmizi Qarabağlı xoş günlər, tərəqqi və inkişaf gözləyir.

*Əfsanə BAYRAMQIZI,*
*“Xalq qəzeti”*